# Azərbaycan Dövlət Pantomima Teatrı Tbilisi Festivalında "Son ştrix" tamaşasını təqdim edib



Gürcüstan Dövlət Pantomima Teatrının yaranmasının 50 illiyinə həsr olunan Beynəlxalq Teatr Festivalı mayın 25-də başa çatıb.

Paytaxt Tbilisidə 5 gün davam edən festivalda Azərbaycan Dövlət Pantomima Teatrı xalq artisti Bəxtiyar Xanızadə və Bəhruz Əhmədlinin "Son ştrix" tamaşası ilə çıxış edib.

Azərbaycanlı aktyorların çıxışı maraqla qarşılanıb.

Tamaşada əməkdar artist Elman Rəfiyev, aktyorlar Elnur İsmayılov, Bəhruz Əhmədli, Ceyhun Dadaşov, Nurlan Rüstəmov və Rafiz Mehdizadə çıxış ediblər.

Gürcüstan Dövlət Pantomima Teatrının bədii rəhbəri, tanınmış rejissor Amiran Şalikaşvili müsahibəsində deyib: "Azərbaycan və Gürcüstan pantomima teatrları dövlət statusuna malik teatrlardır. Bu iki teatrın əməkdaşlığı 1996-cı ildən başlayıb. Amma mənim Azərbaycan mədəniyyəti, incəsənəti, teatrı ilə tanışlığımın tarixi daha qədimdir. Mən özümü azərbaycanlı kimi hiss edirəm. Azərbaycanlı dostlarımın bu gün bizim yubiley tədbirimizdə iştirak etməsi bizim üçün ikiqat sevincdir. Bizim qardaş xalqlar hər zaman bir-birlərini dəstəkləyirlər. Azərbaycanlı qardaşlarımızın 50 illik yubileyimizdə gözəl tamaşa nümayiş etdirmələri bizim üçün böyük fərəhdir. Azərbaycanlı aktyorlar gürcü tamaşaçıları, qonaqlarımızı valeh etdilər. Bizə belə bir sevinci bəxş etdiklərinə görə Azərbaycan Mədəniyyət Nazirliyinə, Dövlət Pantomima Teatrının kollektivinə minnətdaram".

Azərbaycan Dövlət Pantomima Teatrının bədii rəhbəri, xalq artisti Bəxtiyar Xanızadə deyib: "Gürcüstanda dəfələrlə qastrol səfərlərində olmuşuq. Bu ölkədə Azərbaycana böyük maraq, isti münasibət, xüsusi rəğbət var. Bu da bizi daha məsuliyyətli olmağa, daha yaxşı əsərlər hazırlamağa sövq edir".

Tamaşaçı Cemal deyir: "Azərbaycanlı aktyorların təqdim etdikləri tamaşada xeyirlə şərin mübarizəsi əks olunub. Ürəyi, qəlbi həyat eşqi ilə dolu olan bir insan qurur, yaradır. Lakin bəziləri onun yaratdıqlarını dağıdır, viran qoyur. Bir insan mələk kimi yaxşılığı, gözəlliyi təlqin edir, başqa biriləri onu iblisə dönməyə vadar edirlər. Aktyorun sonda məşhur "Nəsimi" filmindəki musiqi sədaları altındakı hərəkətləri daha valehedici idi. Mən azərbaycanlı aktyorların çıxışından çox məmnun qaldım".

***Xətayi ƏZİZOV,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Tbilisi*